Jos-Jd Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:24 Page 345

# YƏHUDANIN MƏKTUBU

## GİRİŞ

*«Yəhudanın Məktubu»* özlərini imanlı adlandıran yanlış təlim yayan müəllimlərə qarşıdır. Bu qısa məktub məzmunca Peterin ikinci məktubuna yaxındır. Müəllif burada imanlıları «əmanət edilən iman uğrunda mübarizə aparmağa» (1:3) çağırır.

***Kitabın məzmunu:***

1:1-2 Salamlama
1:3-16 Səhv təlim yayanların məhkumiyyəti
1:17-25 Xəbərdarlıq və nəsihətlər

1 1İsa Məsihin qulu, Yaqubun qar-
daşı mən Yəhudadan Ata Allahın
sevdiyi,[a] İsa Məsih üçün qorunmuş
olan çağırılanlara salam! 2Mərhəmət,
sülh və məhəbbət sizə bol-bol verilsin!

### *Günah və məhkumiyyət*

*(2Pet. 2:1-22)*

3Sevimlilər, ümumi xilasımızla bağlı
sizə yazmağa çox səy göstərirdim. Bu
arada müqəddəslərə ilk və son dəfə
əmanət edilən iman uğrunda mübarizə
aparmağa sizi həvəsləndirmək üçün
sizə yazmağı özümə borc bildim.
4Çünki Allahımızın lütfünü pozğunluq
üçün bəhanələrə çevirən, yeganə Pər-
vərdigarı – Rəbbimiz[b] İsa Məsihi
inkar edən bəzi allahsız adamlar
gizlicə aranıza girdilər. Onların mü-
hakiməyə uğrayacaqları çoxdan yazıl-
mışdır.
5Bütün bunları bildiyiniz halda sizə
xatırlatmaq istəyirəm ki, ilk və son
dəfə xalqı[c] Misirdən xilas edən Rəbb
sonra iman etməyənləri məhv etdi. 6Öz
başçılıqlarını saxlamayan, məskunlaş-
dığı yerləri tərk edən mələkləri də
böyük qiyamət günü[d] üçün əbədi
zəncirlərlə bağlayaraq zülmətdə sax-
lamışdı. 7Sodom, Homorra və ətraf-
dakı şəhərlər də özlərini buna bənzər
tərzdə cinsi əxlaqsızlığa və qeyri-təbii
münasibətlərə təslim etdilər; sonra bu
şəhərlər əbədi odla yandırılma cəzasını
çəkərək bir nümunə oldu.
8Eyni şəkildə aranıza girən bu
röyagörənlər də öz cismini murdar
edir, ağalığı rədd edir, ehtişamlı
varlıqlara şər atırlar. 9Hətta baş mələk
Mikael də Musanın cəsədi barəsində
iblisin əleyhinə çıxıb ona şər söyləyə-
rək hökm verməyə cəsarət etmədi,

---

a **1:1** *Allahın sevdiyi* – bəzi əlyazmalarda *Allahda təqdis edilib.*
b **1:4** *Rəbbimiz* – bəzi əlyazmalarda *Allahımız və Rəbbimiz.*
c **1:5** *Bütün … xalqı* – bəzi əlyazmalarda *Bütün bunları başdan-başa bildiyiniz halda sizə xatırlatmaq istəyirəm ki, xalqı.*
d **1:6** *Böyük qiyamət günü* – hərfi tərcümədə *böyük günün mühakiməsi.*
**1:1** *Mat. 13:55; Mark 6:3* **1:5** *Çıx. 12:51; Say. 14:28-30* **1:6** *Yar. 6:1-4* **1:7** *Yar. 19:1-24*
**1:9** *Qanun. 34:6; Dan. 10:13,21; 12:1; Zək. 3:2; Vəhy 12:7*